**G.T.Əliyeva**

**UOT:338.45; JEL: L19.**

# Sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılmasında restrukturizasiyasının rolu

***Xülasə***

*Təqdim olunmuş məqalədə sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması məsələləri tədqiq olunur. Əsas diqqət restrukturizasiya amilinə yönəldilmişdir. Məqalədə qeyd edilir ki, sənaye müəssisələrində xüsusən də emal sənayesində restrukturizasiyanın aparılması olduqca vacibdir. Bu prosesdə müəssisənin həm idarəetmə sistemi, bazar tələbinin təmin edilməsi, fəaliyyət baxımından qiymət dəyişikliyinə uyğunlaşması və maliyyə restrukturizasiyaı təkmilləşəcəkdir. Həmçinin vurğulanır ki, Strateji Yol Xəritələrində müvafiq hədəflərin daha tez reallaşması baxımından restrukturizasiyanın həyata keçirilməsi əhəmiyyətli olacaqdır.*

***Açar sözlər:*** *sənaye, müəssisə, rəqabətqabiliyyətlilik, restrukturizasiya, idarəetmə, səmərəlilik, maliyyə, bazar*

## Giriş

Sənaye müəssisələrinin rəqabətqabiliyyəti və səmərəli fəaliyyəti onun istehlakçılar, rəqiblər, dövlət orqanları, təchizatçılar, maliyyə təşkilatları, əmək resurslarının mənbələri və s. məcmusunu nəzərdə tutan xarici mühitin tələblərinə uyğunlaşması səviyyəsindən asılıdır. Adətən xarici mühit, iqtisadi (məsələn, bazarın qloballaşması və ya onun regional diferensasiyası), texnoloji (yeni texnologiyanın sürətlə yayılması), siyasi-hüquqi (qanunvericilikdə dəyişikliklərin baş verməsi), sosial-mədəni (demoqrafik dəyişikliklər, dəyərlər sistemində baş verən proseslər) və fiziki-ekoloji (iqlim şərtləri, ekosistemə təsirlər) komponetlərdən ibarət olur. Sənaye müəssisələrinin səmərəli fəaliyyəti və bazarda rəqabətqabiliyyəti bu komponentlərin hər birində baş verən dəyişikliklərə onun uyğunlaşmasından asılıdır. Xarici mühitdə baş verən dəyişikliklərə müəssisələrin uyğunlaşmasına onların restrukturizasiyası vasitəsilə nail olunur. Müəssisənin restrukturizasiyası, müəssisədə iqtisadi resurslardan daha səmərəli istifadə olunması məqsədilə onun fəaliyyətinin, idarə edilməsinin və maliyyəsinin strukturunun köklü şəkildə dəyişdirilməsinə yönəldilmiş prosesi əks etdirir. Müəssisə tərəfindən bazar və rəqabət şəraitini öyrənmək əsasında adekvat strategiyanın müəyyən olunduğu, səmərəli təşkilati strukturun yardıldığı, istehsal proseslərinin zəif tərəfləri tədqiq edildiyi və yenidən qurulduğu, idarəetmə sistemində islahatların aparıldığı halda o, uzun müddət ərzində özü-nün rəqabətqabiliyyətini təmin edə bilər.

## Restrukturizasiyada əsas məqsəd

Sənaye müəssisələrinin restrukturizasiyası onların idarəetmə sisteminin yenidən təşkilini, biznes-proseslərin optimallaşdırılmasını, müəssisələrin təşkilati strukturunun təkmilləşdirilməsini, kapital və maliyyənin idarə olunması sisteminin yenidən qurulmasını, biznesin daha səmərəli və perspektiv istiqamətlərinin inkişaf etdirilməsi, istehsal edilən məhsulların çeşid strukturunun optimallaşdırılmasını və s. əhatə edir (6, s.20). Bu baxımdan qeyd etmək lazımdır ki, səmərəli şəkildə həyata keçirilmiş restrukturizasiya sənaye müəssisəsinə öz fəaliyyətinin səmərəliliyini yüksəltməyə və xərclərin

©G.T.Əliyeva i.f.d., dos. Lənkəran Dövlət Universiteti, "İqtisadiyyat və idarəetmə" fakültəsinin dekanı.
E-mail: gulbeniz_aliyeva@mail.ru
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

azaldılmasına, satış həcminin artırılmasına, çevik idarəetmə sisteminin tətbiqinə, investisiya vəsaitlərinin cəlb edilməsinə və son nəticədə, müəssisənin rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb olur.

Son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatları sənaye müəssisələrində çevik idarəetmə sisteminin bazar münasibətlərinə uyğun formalaşması istiqamətində mühüm addım kimi qiymətləndirilir. Çünki, bazar münasibətləri şəraitində sənaye müəssisələrinin fəaliyyət göstərdiyi xarici mühitin bütün komponentlərində dəyişikliklərə səbəb olmuşdur. Ölkədə sənaye müəssisələrində səmərəli idarəetmə fəaliyyətinin təmin edilmədiyi şəraitdə, çox yaxşı hazırlanmış və aktiv şəkildə həyata keçirilən makroiqtisadi siyasət belə səmərəsiz olacaqdır (4, s.7). Buna görə də, ölkə iqtisadiyyatının bazar münasibətləri şəraitinə uyğun sənaye müəssisələrinin yeni tələblərlə fəaliyyət göstərməsini zəruri etmişdir. Xüsusən də qeyri-neft sektorunu xarakterizə edən sənaye müəssisələri üçün bu problem daha aktuallıq kəsb edir. Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin inkişaf edib innovasiyalı xüsusiyyətlərə əsaslanması sənaye müəssisələrinin fəaliyyətinə köklü surətdə təsir göstərmişdir ki, bu da onların əksəriyyətinin restrukturizasiyasının həyata keçirilməsini zəruri edir. Lakin, praktik müşahidələr göstərir ki, bazar münasibətləri şəraitində sənaye müəssisələrinin inkişaf strategiyasının düzgün müəyyən edilməməsi və onların restrukturizasiyası istiqamətində aktiv addımların atılmaması xüsusən də qeyri-neft sektoruna xas olan sənaye müəssisələrində məhsulun rəqabətqabiliyyətliliyinin azalmasının əsas səbəblərindən biridir. Sənaye müəssisələrinin istehsal fəaliyyətindən gəlirlərin artırılmasına istiqamətlənən aktiv strategiya əvəzinə, qarışya çıxan problemlərin həlli istiqamətində gecikmiş tədbirlərin həyata keçirilməsinə əsaslanan passiv strategiyaya əsaslanması, son nəticədə onların rəqabət qabiliyyətlərinin aşağı düşməsinə səbəb olmuşdur. Gecikmiş tədbirlər dedikdə, əsasən bazar tələblərinə keyfiyyətli cavabın verilməməsi, idxal olunan məhsullarla müqayisədə daha çox istehsal xərclərinə malik olması, innovativ xüsusiyyətləri özündə az birləşdirməsi, xarici bazarlara istiqamətlənən strategiyanın olmaması və s. aid edə bilərik.



Restrukturizasiya bazarda tam və qismən uyğunlaşmış, həm də maliyyə-iqtisadi vəziyyəti pis olan sənaye müəssisələrində həyata keçirilir. Çünki, əmtəə və maliyyə bazarlarında baş verən dəyişikliklər nəticəsində əmtəə və xidmətlərə olan tələb və təklifin ciddi surətdə dəyişməsi müəssisələrin aktivlərinin strukturuna əhəmiyyətli şəkildə təsir göstərir (6, s.188). Aydındır ki, müəssisənin balansında istifadə olunmayan binalar, maşın və avadanlıqlar varsa və ya əsas fondların bir hissəsindən səmərəli istifadə etmək imkanları məhduddursa, onların saxlanması ilə əlaqədar xərclər müəssisənin rəqabət qabiliyyətini aşağı salır. Bu baxımdan, hazırda sənaye müəssisələrinin restrukturizasiyasını zəruri edən amillərdən biri kimi onların istehsal etdiyi məhsullara bazarda tələbin azalmasıdır. Ümumən bütün sənaye müəssisələrini ehtiva etməyən bu meyl xüsusən də emal sənayesinin bəzi sahələrində özünü daha qabarıq göstərmişdir. Belə ki, bu sahədə istehsal fondlarının mövcudluğu son 5 il üçün cədvəl 1-də verilmişdir (cədvəl 1).

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 1.**

**Emal sənayesinin bəzi sahələrində istehsal fondlarının mövcudluğu (mly. manat)**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| İçki istehsalı | 433,5 | 451,6 | 451,0 | 453,0 | 376,5 |
| Tütün məmulatlarının istehsalı | 63,7 | 63,2 | 60,5 | 61,5 | 61,9 |
| Geyim istehsalı | 50,8 | 62,4 | 66,0 | 64,8 | 35,5 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 20,7 | 20,8 | 19,0 | 17,2 | 15,1 |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 222,6 | 218,4 | 214,2 | 212,6 | 204,7 |

Mənbə: (7)

Təqdim olunmuş cədvəldən göründüyü kimi 2013-cü ilə nisbətdə 2017-ci ildə emal sənayesinin beş əsas sahələrində əsas istehsal fondlarının həcmi azalan dinamikanı əks etdirmişdir. Ümumən fond veriminə nəzər saldıqda isə aydın olur ki, yuxarıda göstərilən sahələrdə nəzərdə tutulan dövr ərzində fond verimi artmağa doğru meylli olmuşdur (cədvəl 2).

**Cədvəl 2.**

**Emal sənayesi üzrə fond verimi (%)**



| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Emal sənayesi | 99,0 | 100,3 | 100,2 | 94,7 | 90,6 |
| Qida məhsullarının istehsalı | 101,7 | 94,1 | 97,4 | 101,7 | 91,6 |
| İçki istehsalı | 107,3 | 113,1 | 89,6 | 94,3 | 139,0 |
| Tütün məmulatlarının istehsalı | 63,6 | 170,9 | 92,6 | 93,1 | 106,7 |
| Toxuculuq sənayesi | 74,2 | 105,6 | 44,4 | 196,2 | 121,2 |
| Geyim istehsalı | 113,0 | 110,1 | 52,8 | 143,6 | 210,8 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 100,7 | 59,8 | 101,9 | 68,5 | 109,6 |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | 86,3 | 117,4 | 163,5 | 181,1 | 119,9 |
| Kağız və karton istehsalı | 96,8 | 83,3 | 40,0 | 60,5 | 83,2 |
| Poliqrafiya fəaliyyəti | 105,1 | 63,2 | 168,3 | 104,8 | 115,2 |
| Kimya sənayesi | 112,8 | 135,5 | 141,6 | 85,8 | 62,2 |
| Əczaçılıq məhsullarının istehsalı | 108,0 | 123,8 | 47,7 | 122,4 | 243,0 |
| Rezin və plastmas məmulatların istehsalı | 96,0 | 71,6 | 69,7 | 116,4 | 182,0 |
| Tikinti materiallarının istehsalı | 95,4 | 90,2 | 103,6 | 89,5 | 139,3 |
| Metallurgiya sənayesi | 99,8 | 103,4 | 90,5 | 96,4 | 90,9 |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 57,0 | 105,7 | 154,9 | 122,3 | 91,6 |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 65,4 | 56,3 | 193,7 | 99,6 | 122,0 |
| Elektrik avadanlıqlarının istehsalı | 83,4 | 112,6 | 60,0 | 263,6 | 136,7 |
| Maşın və avadanlıqların istehsalı | 85,5 | 97,6 | 64,7 | 76,7 | 135,1 |
| Avtomobil və qoşquların istehsalı | 111,1 | 172,0 | 99,9 | 113,1 | 1,1 |

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | | |
|---|---|---|---|---|---|
| Sair nəqliyyat vasitələrinin istehsalı | 100,5 | 96,7 | 90,6 | 85,6 | 94,3 |
| Mebellərin istehsalı | 103,4 | 104,1 | 117,5 | 109,8 | 99,4 |
| Zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 112,9 | 87,5 | 207,0 | 43,8 | 94,0 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 108,8 | 40,6 | 251,0 | 104,2 | 54,0 |

Mənbə: (7)

Cədvəl məlumatlarından aydın olur ki, ümumən emal sənayesi üzrə fond verimi son 5 ildə təxminən 9 faizə qədər azalmışdır. Bu azalmaya əhəmiyyətli dərəcədə təsir göstərən istehsalın aşağı düşməsini qeyd etmək olar. Belə ki, 2010-cu ilə nisbətdə 2017-cı ildə sənaye məhsulu təqribən 0,8 faiz azalmışdşr (2). Eyni zamanda, sənayenin fondtutumlu sahələrinin inkişafı da fondverimi göstəricisinin azalmasına səbəb olmuşdur. Cədvəl məlumatlarına nəzər saldıqda o da aydın olur ki, fond verimi son 5 il üçün əsasən qida məhsulları istehsalında (təqribən 10 faiz), kağız və karton istehsalında (təqribən 13 faiz), kimya məhsulları istehsalında (təqribən 50 faiz), metallurgiya sənayesində (təqribən 10 faiz), avtomobil istehsalında (təqribən 100 faiz), digər nəqliyyat vasitələrinin istehsalında (təqribən 5 faiz), zərgərlik avadanlıqlarının istehsalında (təqribən 9 faiz), maşın və avadanlıqların quraşdırılması və təmirində (təqribən 50 faiz) azalmışdır. Bundan başqa emal sənayesi üzrə araşdırılan sahələrdə son 5 il üçün istehsal fondlarının indekslərinə nəzər saldıqda (əvvəlki ilə nisbətdə) qeyd edə bilərik ki, ümumən aşağı dinamika burda da müşahidə edilir. Belə ki, 2013-cü ilə nisbətdə 2017-ci ildə qida məhsulları istehsal üzrə 10 faiz, içki istehsalı üzrə 9 faiz, tütün məmulatları istehsalı üzrə 20 faiz, kağız və karton istehsalı üzrə 5 faiz, rezin və plastmas məhsulları istehsalı üzrə 14 faiz, metallurgiya sənayesi üzrə 3 faiz, elektron avadanlıqları istehsalı üzrə 30 faiz, elektrik avadanlıqları istehsalı üzrə 18 faiz, maşın və avadanlıqlar istehsalı üzrə 16 faiz, digər nəqliyyat vasitələri istehsalı üzrə 10 faiz azalma olmuşdur.

**Restrukturizasiyada qiymət amili**

Sənaye müəssisələrinin restrukturizasiyasını zəruri edən səbəblərdən biri də ölkədə qiymət amilləri ilə əlaqədar olmuşdur. Belə ki, bazar iqtisadiyyatına keçid dövründə qiymətlərin dəyişməsi sənaye müəssisələrində mövcud texnologiyaların səmərliliyinin aşağı düşməsinə və mövcud rəqabət üstünlüklərinin dəyişməsinə səbəb olmuşdur. Qiymətlərin dəyişməsi ayrı-ayrı məhsulların üçün yeni qiymət nisbətlərinin formalaşmasına səbəb olmuşdur ki, bu da ayrı-ayrı sahələrin rəqabət səviyyəsinə müxtəlif formada təsir göstərmişdir. Belə ki, son illərdə ölkədə enerji, su və qaz təchizatı sahəsində qiymətlərin artımı da sənaye müəssisələrinin istehsal təsərrüfat fəaliyyətinin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə şəraitdə sənaye müəssisələri istehsal etdikləri məhsulların çeşid strukturunu optimallaşdırmalıdır. Bu isə müəssisələrin inkişaf strategiyasının müəyyən olunması və zaman xarici mühitdə baş verən dəyişikliklərin, o cümlədən qiymət dəyişikliklərinin nəzərə alınmasını zəruri edir. İstər sənaye məhsulu üzrə, istərsə də mövcud əsas fondların vəziyyəti üzrə aparılan araşdırmalar göstərir ki, onların əksəriyyəti qiymət dəyişikliklərini rəqabətqabiliyyətlilik amilində nəzərə ala bilməmişdir. Çünki, sənaye müəssisələrinin əksəriyyətinin iqtisadi potensialı qiymət dəyişikliklərinin mənfi təsirini aradan qaldırmağa imkan verməmişdir. Məlumdur ki, bazar münasibətlərinə keçidin ilk dövrlərində yüksək inflyasiya şəraitində və qiymət nisbətlərinin kəskin şəkildə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dəyişməsi halında sənaye müəssisələrinin əsaslı yenidənqurma və restrukturizasiya tədbirlərini həyata keçirmək üçün ölkə maliyyə imkanlarına malik olmamışdır (6, s.63).

Ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişaf tempinə nail olunması sənaye müəssisələrinin təşkilati strukturunun təkmilləşdirilməsinə, yeni tələblərə müvafiq olan struktur bölmələrin yaradılmasına zərurət yaradır. Rəqabət bazarda yarandığından sənaye müəssisələrində bazar münasibətləri şəraitində səmərəli işləyə bilən marketinq və satış bölmələrinin formalaşdırılması zəruridir. Bütövlükdə, sənaye müəssisələrinin təşkilati quruluşuna əlaqədar sahələrin mövcud olması, təchizat və satışın təşkili xüsusiyyətləri, xarici ticarət əlaqələrin inkişafı və s. kimi müəssisəxarici amillərlə yanaşı, istehsalın həcmi, istehsalın ixtisaslaşma səviyyəsi, məhsulun nomenklaturası, istehlak olunan xammal və materialların növü, istehsala texniki xidmətin təşkili səviyyəsi kimi müəssisədaxili amillər də təsir göstərir. Bu amillərdən hər birinin dəyişməsi müəssisədə təşkilati restrukturizasiyanın aparılmasını zəruri edir. Bütövlükdə, müasir dövrdə xarici mühitdə baş verən dəyişikliklər sənaye müəssisələrinin restrukturizasiyasını tələb edir. Xüsusilə, istehlakçıların zövqlərində və tələbin həcmində baş verən dəyişikliklər sənaye müəssisələrinin istehsal etdiyi məhsulların çeşid strukturuna və istehsal potensialının tərkibinə bilavasitə təsir göstərir. Bu baxımdan elmi-texniki tərəqqi də sənaye müəssisələrinin restrukturizasiyasını zəruri edən əsas amillərdən biri sayılır. Məsələn, dünya bazarında diaqonal konstruksiyalı şinlərin radial konstruksiyalı şinlərlə əvəz edilməsi Bakı şin zavodunun məhsuluna olan tələbatın azalmasına və son nəticədə istehsalın dayanmasına səbəb olan amillərdən biri olmuşdur. Bakı neft emalı zavodlarında sürtgü yağları istehsalı kəskin azalmışdır. Bu azalmanın əsas səbəbi ölkənin neft emalı zavodlarında istehsal edilən yağların keyfiyyətinin yüksəldilməsi imkanlarının məhdud olması ilə əlaqədar olmuşdur. Belə ki, aparılmış tədqiqatlar göstərir ki, yağ distilatlarının təmizlənməsini dərinləşdirməklə alınmış distilyat yağların özlülük indeksi 92-yə, qalıq yağlarının özlülük indeksi isə daha aşağı olur ki, bu da tələb edilən özülülük indeksindən əhəmiyyətli dərəcədə aşağıdır. Buna görə də, sürtkü yağlarının istehsalında hidrogenləşmə prosesinin müxtəlif variantlarının yağ istehsalı sxemində tətbiq edilməsi və müxtəlif metodlar ilə yüksək indeksli sintetik yağ komponentlərinin istehsal edilməsi tələb olunur (5, s.63). Bunu təmin etmək üçün isə neft emalı müəssisələrində əlavə qurğuların tikilməsi və istehsal prosesində destruktiv proseslərin payının artırılması zəruridir. Müasir dövrdə yerli sənaye müəssisələrinin qarşısında restrukturkturizasiya prosesində istehsal proseslərini və idarəetmə strukturlarını, idarəetmə metodlarını və sistemlərini köklü şəkildə yenidənqurmaq kimi vəzifələr durur. Bunun üçün hökumət daxili və xarici maliyyə imkanlarını səfərbər etməlidir. Fikrimizcə, hökumət tərəfində inteqrasiya edilmiş şirkətlərin yaradılması hesabına idarəetmənin qeyri-mərkəzləşdirilməsinin üstünlüklərindən istifadə etməklə iqtisadiyyatın idarəedilməsinin səmərəliliyinin yüksəldilməsinə nail olmaq olar. Çünki, belə şirkətlərin mövcudluğu ayrı-ayrı sahələrin inkişaf etdirilməsini asanlaşdırır. Bu şirkətlər özlərinin inkişaf proqramını hazırlamalı və bu proqram hökumət tərəfindən təsdiq edilməlidir. Bu proqramda: sənaye müəssisəsinin inkişaf strategiyası, strategiyaya müvafiq olaraq təşkilati strukturun, çeşid strukturunun, malik olduğu aktivlərin optimallaşdırılması, istehsal edilən məhsulların və texnologiyanın təkmilləşdirilməsi və s. öz əksini tapmalıdır.

**Sənaye müəssisələrinin maliyyə restrukturizasiyası**

Strateji Yol Xəritəsində əsas tədbirlərdən hesab olunan maliyyə restrukturizasiyası üzrə qeyd edilir ki, sənaye müəssisələrində potensial rəqabət qabiliyyəti yüksək hesab olunan aktivlərə görə müəssisələrin təkrar işə salınması üçün özəlləşdirmə ilə yanaşı borcların restrukturizasiyası, strateji sərmayədarın cəlb olunması, idarəetmədə dövlət-özəl


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

əməkdaşlığının gücləndirilməsi və beynəlxalq təcrübələrin tətbiq edilməsi nəzərdə tutulmuşdur (1, s.25). Bu baxımdan post-neft dövrü üçün sənaye müəssisələrinin maliyyə restrukturizasiyası onların rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyətə malikdir. Belə ki, müəssisənin maliyyə vəziyyəti onun rəqabət qabiliyyətlilik səviyyəsini müəyyən edən əsas göstəricilərdəndir. Sənaye müəssisisələrinin maliyyə restrukturizasiyası prosesində onların debitor və kreditor borclarının ödənilməsi şərtlərinin dəyişdirilməsinə və ya onun başqa növ öhdəliyə çevrilməsinə istiqamətlənmiş tədbirlər həyata keçirilir.

Sənaye müəssisələrində veksellərin tətbiqi debitor və kreditor borclarını likvidləşdirir. Belə halda, vekseli istənilən vaxt üçüncü tərəfə satmaq imkanı yaranır ki, bu da sənaye müəssisənin aktivlərinin (debitor borcları müəssisənin aktivlərinin tərkib hissəsidir), gələcəkdə isə passivlərinin strukturunun yaxşılaşmasına səbəb olur. Eyni zamanda, belə hal istehsal-təsərrüfat fəaliyyətində risk amilini müəyyən etməyə imkan verir. Vekselləri çətin və ya yüksək diskontla satılan müəssisələrlə təsərrüfat əlaqələrinin yaradılması nisbətən riskli hesab edilir. Qeyd etmək lazımdır ki, kreditor borclarını təsdiq edən veksellərin müəssisənin passivlərinin restrukturizasiyasına təsiri nisbətən mürəkkəbdir. Belə ki, veksellərin yaranması və onların müəyyən müəssisə tərəfindən alınması yolu ilə müəssisənin iflasına nail olmaq olar. Sənaye müəssisəsinin iflası heç də həmişə onun ləğv edilməsi ilə nəticələnmir. Təsərrüfat vahidlərinin (məhdud məsuliyyətli müəssisə, əlavə məsuliyyətli müəssisə və səhmdar cəmiyyətlər) öhdəliklərinə görə onun iştirakçıları (sahibləri, səhmdarları) müəssisənin nizamnamə fonduna qoyduqları pay həcmində məsuliyyət daşıyırlar (yalnız əlavə məsuliyyətli müəssisədə iştirakçılar nizamnamədə müəyyən olunmuş qaydada müəssisənin nizamnamə fonduna qoyduqları payın müəyyən misli qədər məsuliyyət daşıyırlar). Buna görə də, iştirakçıların paylarını müəssisəsinin borclarının ödənilməsinə yönəltmək olmaz və ya müəssisənin borclarını ödəmək üçün əlavə pay (səhm) yerləşdirməyə icazə verilmir. Belə halda, sənaye müəssisələrinin iflas prosedurası həyata keçirilir və mövcud payların satılması və kreditor borclarının ödənilməsi həyata keçirilir. Nəticədə, sənaye müəssisələrinin mülkiyyətçilərinin strukturunu dəyişməklə onların maliyyə cəhətdən sanasiyası həyata keçirilir və maliyyə vəziyyətinin yaxşılaşdırılmasına nail olunur. Xarici ölkələrin təcrübəsi göstərir ki, bəzən sənaye müəssisələri maliyyə vəziyyətlərini yaxşılaşdırmaq məqsədilə özlərini iflas olduqlarını elan edirlər və iflas proseduras hesabına müəssisənin maliyyə vəziyyəti yaxşılaşdırılır. Bütövlükdə, hazırda ölkədə sənaye müəssisələrinin maliyyə restrukturizasiyasının yuxarıda qeyd edilən metodlarından istifadə edilmir.

**Nəticə**

Bütövlükdə, aparılmış təhlil göstərir ki, sənaye müəssisələrinin əksəriyyətinin restrukturizasiyası tam həyata keçirilməmiş (xüsusən də emal sənayesində) və onların xarici mühitin tələblərinə lazimi səviyyədə uyğunlaşmamaları rəqabətqabiliyyətliliyin aşağı olmasına gətirib çıxartmışdır. Xüsusən də çevik idarəetmə sisteminin olması, innovasiyalı yanaşmanın bərqərar olması, proqram məqsədli hədəflərin müəyyənləşdirilərək yol xəritəsinin qəbul edilməsi, dövlət tərəfindən həyata keçirilən qiymət və maliyyə siyasətlərində rəqabətin tələblərinin nəzərə alınması zəruridir. Strateji Yol Xəritəsindən irəli gələrək müəyyənləşdirilmiş hədəflərin fonunda hesab edirik ki, daha çevik və dinamik idarəetmə sisteminə malik olmaq, sənaye müəssisələri qarşısında dayanan əsas vacib məsələlərdən biridir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı. Səda, 2018.
3. Аистова М.Д. Реструктуризация предприятий: вопросы управления, стратегии, координации структурных параметров, снижение сопротивления преобразованиям. М.Д. Аистова; Бонд Фиде Финанс. М.: Альпина Паблишер, 2002.
4. Некоторые примеры успешной реструктуризации предприятий. Составитель: Проект Тасис по Распространению Технической Информации Издание Европейской Комиссии 2007.
5. Abdullayev R.İ., Xıdırov B.S. Azərbaycan neftayırma sənayesində "Azərneftyanacaq" neft emalı zavodunun rolu. Bakı. Elm, 2003.
6. Юзбашева Г.З. Реструктуризация промышленности Азербайджана. Баку: Элм, 2003.
7. https://www.stat.gov.az/

***Г.Т.Алиева***

***Роль реструктуризации в повышении конкурентоспособности промышленных предприятий***

***Резюме***

*В представленной статье рассматриваются вопросы повышения конкурентоспособности промышленных предприятий. Основное внимание уделяется вопросам реструктуризации. В статье отмечается, что реструктуризация промышленных предприятий особенно важна в отраслях обрабатывающей промышленности. Этот процесс способствует не только улучшению системы управления, но и проведению технологической и финансовой реструктуризации. Также отмечается, что осуществление процесса реструктуризации может быть значимым в реализации «Стратегической дорожной карты», что будет способствовать реальному воплощению в жизнь поставленных задач.*

***Ключевые слова:*** *промышленность, предприятие, конкурентоспособность, реструктуризация, управление, эффективность, финансы, рынок*



***G.T.Aliyeva***

***The role of restructuring in increasing the competitiveness of industrial enterprises***

***Summary***

*The presented article examines the issues of increasing the competitiveness of industrial enterprises. The main focus is on the restructuring factor. The article notes that restructuring of industrial enterprises is particularly important in the manufacturing industry. In this process, management system of enterprises, provision of market demand, adaptation to price changes in terms of action and financial restructuring will improve. It is also emphasized that the implementation of restructuring in terms of faster realization of the relevant targets will be crucial in the Strategic Roadmap.*

***Key words:*** *industry, enterprise, competitiveness, restructuring, management, efficiency, finance, market*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:17.06.2019.***
***Çapa qəbul olunub:20.06.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*